*Akademik Tarih ve Düşünce Dergisi* *Academıc Journal of History and Idea*
*Cilt:IV/Sayı:XI/Mayıs /MMXVII* *ISSN:2148-2292.* *Volume:IV/Number:XI/ May / MMXVII*
*АКАДЕМИЧЕСКАЯ ИСТОРИЯ И МЫСЛЬ*

# Azerbeycan Tarix Fənninin Tədrisində İncəsənətlə Tərbiyə

**Metanet Memmedova***

**Aydın Memmedov****

## *Öz*

*Bizi əhatə edən və tarixin tədrisində təlqin olunan estetik tərbiyə çox qədim bir tarixə malikdir. Estetik və etik tərbiyə insanın bir şəxsiyyət kimi hərtərəfli və harmonik yetişməsində çox mühüm rol oynayır. Mənbələrdəki mühüm informasiyalar, heykəltəraşlıq, arxitektura, teatr və incəsənətin müxtəlif sahələri haqqında biliklər tarixin tədrisinin bütün kurslarında müəllimin təlimi üçün xoş məram, əhvali-ruhiyyə yaradır. Gənc nəslin, şagirdlərin incəsənətlə tərbiyəsində böyük rol oynayır. Təqdim olunacaq məqalədə qədim zamanlardan zəmanəmizə qədər estetik tərbiyənin atributlarına toxunulur, tarixin tədrisində incəsənətlə tərbiyənin əhəmiyyəti nəzərə çardırılır.*

**Açar sözlər:** *İncəsənətlə tərbiyə, estetik tələbat, gözəllik hissi.*

* *Doç. Dr., Azerbaycan, Baku Devlet Universitesi, metanet.memmedova.61@mail.ru*

** *Azerbaycan, Baku Devlet Universitesi, aydin.mmmdov.67@mail.ru*

# Education With art in History of Teaching

**Metanet Memmedova***

## *Abstact*

*The aesthetic perception of the surrounding world has extremely ancient vrigins. The pedagogical principles of aesthetic perception play exceptional role in versatile and harmonious development of an indiridual. In this terms, the teaching of history as a discipline has a great potential. Azerbaijan carpets are the most ancient material Azerbaijan carpets are the most ancient material and cultural examples of our nation, and are held in world museum. Being the enternal decoration of our houses, precious dowry of our daughters, the carpet weaving art was reflected in fiction writings, history of art and manual of history. Enormous amount of information about visual arts, sculpture, architecture, theatrical art and othere spheres of arts in all courses of history creates favourable conditious for teaching and uporinging of the students, setting love for beauty and arts.*

**Keywords:** *Art nurture, the demand for aesthetic, sense of beauty*

* *Doç. Dr., Azxerbaıjan State University,* *metanet.memmedova.61@mail.ru*

## Giriş

Bizi əhatə edən ətraf aləmə, gerçəkliyə həssas, estetik münasibət çox qədim tarixə malikdir. Şəxsiyyətin estetik hissinin və bədii zövqünün təşəkkülündə və tərbiyəsində təbiətin əsrarəngiz gözəllikləri, qənirsiz, ezazkar və təkrarsız rəngləri, səsləri, dağları-dərələri, okeanı, dənizləri, çayları, səması ilə birgə təbii ki, təlim prosesi də mühüm rol oynayır. Estetik tərbiyənin bəşər sivilizasiyası ilə yaşıd olduğunu söyləyənlər, zənnimcə yanılmırlar. İncəsənətlə tərbiyə çox qədim tarixə malikdir. Tərbiyənin də, incəsənətin də qayəsini, məqsədini hərtərəfli inkişaf etmiş, ahəngdar şəxsiyyətin, kamil insanın formalaşdırılması təşkil edir.

Gözəlliyə can atmaq, estetik tələbat insanın xislətindədir. Hələ ibtidai icma quruluşunda insan öz əməyini effektli etmək arzusu ilə zaman-zaman əldə etdiyi əşyalar, iştirakçısı olduğu və ya müşahidə etdiyi hadisələr üçün simmetriya mütənasiblik, forma-məzmun kimi xüsusiyyətlərin olduqca böyük önəm kəsb etdiyini anlamağa, dərk etməyə başlayırdı.[123] İbtidai insan hadisə və əşyaların mahiyyətinə vardıqca bu və ya digər hisslərini, duyğu və fikirlərini qrafik üsullarla əks etdirməyə çalışırdı: "Azıx mağarasının və təbəqəsinin xəlvət yerində tapılmış ayı kəllələri daha çox maraq doğurur. Bu ayı kəllələrinin birinin üzərində 8 əyri xətt çəkilmişdir. Göstərilən xətlərin hamısı dişli daş alətlərlə çəkilmişdir. Güman edilir ki, kəllə üzərində çəkilmiş xətlər azıxantropun ideoloji təsəvvürləri ilə bağlı olmuşdur.[4] Sonralar bu sadə xətlər ibtidai insanın təbiətdə hər an müşahidə etdiyi harmoniyanı, ritmi, ülviliyi, təkrarsızlığı ehtiva edən ornamentlərə, sadə rəsmlərə çevriləcək. Hələ ibtidai insanın yazmaq və rəsm çəkmək sənətini öyrənməsindən çox əvvəl, incəsənətin meydana gəlməsindən min illər qabaq əmək prosesi insanda gerçəkliyə qarşı bədii münasibət bəsləmək qabiliyyəti oyatmışdır.İstər ali, istərsə də orta ümumtəhsil məktəblərində tədris olunan tarix dərsliklərində ibtidai icma dövründən tutmuş, ta ki, müasir dövrədək bəşəriyyətin gözəlliyini duymaq, ondan yüksək həzz almaq sonra isə onu incəsənət əsərlərində vəsf etmək məharəti qırılmaz və dinamik bir proses kimi izlənilir. Məhz ona görə də bir çox

---

[1] Aydın Memmedov, İbtidai icma dövründe elm olubmu? Tarix qezeti. 1992. 3(32)

[2] Aydın Memmedov, Tarix derslerinde incesenetle terbiye, yaxud gözellik alemine seyahet. Sumqayıt qez. 08. 02. 2003. 11 (7090).

[3] Esedulla Ceferov, İnsanlığın seheri, Azerbaycan, Bakı. 1994. s.31

[4] Esedulla Ceferov, İnsanlığın seheri, Azerbaycan, Bakı. 1994. s.37

elmlərin kəsişmə nöqtəsində dayanan tarix fənni ilə gənc nəslin incəsənətlə tərbiyəsi, xəyalən ayrı-ayrı dövrlərin gözəllik aləminə səyahət etməsi üçün son dərəcə geniş imkanlar mövcuddur. Məsələn, müəllim 6-cı sinif şagirdlərinə ibtidai icma quruluşu dövrünə dair dərsləri keçərkən ibtidai insanların yaşadıqları mağaraların divarlarında və ya Qobustanda olduğu kimi qayalar üzərində çəkdikləri təsvir nümunələrindən maraqlı söhbətlər aça bilər. Totemizmlə bağlı qısa, lakin məzmunlu söhbət şagirdlərdə ibtidai incəsənətin haradan, hansı inanclardan qaynaqlanması haqqında aydın təsəvvür yarada bilər. Belə ki, totemizm baxışlarına görə, heyvanlar və insanlar eyni bir əcdada malik olmuş, zaman-zaman bu heyvanların bir qismi öz dərilərini çıxarıb, guya adam ola bilmişlər. Bir qisim heyvanlar isə guya, könüllü olaraq öz ətlərini insanlara verib ölürlər. Ona görə də bir çox qəbilələrdə ova getməzdən qabaq totemin yerdə təsviri çəkilir və bu təsvir üzərində xüsusi cadu və ovsun ayinləri icra edilirdi.[56]İbtidai insanların yerdə, qaya və mağara divarlarında çəkdikləri heyvan fiqurlarında istər bədən forması, hərəkətin və dinamikanın təbiiliyi, istərsə də plastika, estetik zəriflik, təbiilik son dərəcə gözəl təsvir edilib. İbtidai icma dövrünə dair sümük silah və alətlərin üzərində həkk edilmiş naxışlar, stilistik elementlər, bu və ya digər dini inancı, astral baxışlar sistemini özündə ehtiva edən svastika və digər təsvir elementləri də bu dövr insanlarının təkcə estetik duyumundan deyil, artıq ətraf mühitə, təbiətə və cəmiyyətə dair bilik və bacarıqlarının da yüksək inkişafını aydın surətdə göstərir. Müəllim tarix dərslərində Azıx mağarasına, Qobustan qaya təsvirlərinə, Orinyak, Madlen mağara təsvirlərinə dair rəngli slaydlar, bukletlər, açıqla komplektlərindən və müasir İKT-nin nailiyyətlərindən istifadə etməklə, ən yaxşı isə əgər təsviri sənətə dair müəyyən bilik və bacarığından istifadə edərək yazı taxtasında plastik qabarit təsvirləri ilə çox gözəl effektlərə nail olmaq olar.[789]Azərbaycanda orta tunc dövrünə aid olan boyalı qablar mədəniyyətindən danışarkən əcdadlarımızın saxsı qablar üzərində çəkdikləri zərif, son dərəcə nəfis rəngli naxış elementlərinin məişətimizə daxil olmasını təbii ki, həmin dövrün ən böyük nailiyyətlərindən biri kimi xarakterizə etmək olar. Boyalı qablarda sarı, qırmızı, narıncı və digər isti rənglərin üstünlük təşkil etməsi təbii ki, həmin dövr insanlarının günəşə, işığa, bolluğa, təmizliyə, aydın səmaya tapınmaları, bu inancları "qoruyan" qabların içərisinin həmişə ruzi və bərəkətlə dolu olması istəyi ilə bağlı idi. Manna mədəniyyətindən danışarkən 1956-1957-ci illərdə Urmiya gölünün cənubunda, Həsənli deyilən yerdə Taqi Asafi və R. Daysonun rəhbərliyi altında fəaliyyət göstərən arxeoloji ekspedisiyanın kəşf etdiyi məhşur qızıl cam haqqında şagirdlərə çox maraqlı məlumatlar vermək olar.[10]Belə ki, tədqiqatçıların gəldiyi qənaətə görə camın yuxarı təsvirində görünən arabalarda (sağdan) günəş allahı Mehr (və ya Mitra) və onun daimi silahdaşları, qoruyucu mələkləri (Sruş və Rameş) təsvir edilmişdir.

Qızıl camın üzərində yüksək məharətlə təsvir olunmuş obrazlar nəinki xalqımızın, artıq ən qədim dövrlərdə yüksək estetik zövqündən, bədii düşüncə tərzindən, həmçinin dini inanclarından, astral baxışlarından da xəbər verir. Belə ki, camın üzərində əslində birinci arabada baş Allah-göy

[5]Yusif Hesenov, İbtidai icma tarixi, Azerbaycan, Bakı. 1963. s. 101

[6]Qara Ehmedov, Bu güne nece gelib çıxmışıq, Azerbaycan, Bakı. 1989

[7] Aleksandr Формозов, Памятники первобытного искусства, Наука, Москва. 1966. с. 38

[8] Борис Лукьянов, В мире эстетики, Просвещение, Москва. 1983. с. 94-95

[9] Николай Чебоксаров, Ирина Чебоксарова, Народы расы культуры, Москва. Наука. 1985.
[10]Azerbaycan inceseneti, Bakı. İşıq. 1992. c. 38

Allahı Ahura Mazda təsvir edilmişdir. Təsvirlərin əksəriyyəti ilahə Anahit və b. Allahlarla bağlı olub, bolluq, bərəkət ideyalarına həsr edilmişdir.[11]Təsvirlərdən birinin başında qanadlı günəş lövhəsi vardır ki, bu da qədim Şərqdə geniş yayılmış günəş və işıq Allahının rəmzidir.

Qədim maddi-mədəniyyət abidələri üzərində təsvir edilən günəş təsvirlərinə Azərbaycanda rast gəlinməsi, təbii ki, bizim ulu əcdadlarımız arasında da günəşə pərəstiş əqidəsinin çox geniş yayılması ilə bağlıdır. Günəş kultu xalqımızın oda tapınma inancı ilə də sıx bağlıdır. Tədqiqatçıların fikrincə: "Od yeni, xoşbəxt ailə qurmağa kömək edir. Elə ona görə də od anadan xoşbəxtlik, evlənməyə icazə verməsini diləyirdilər."[12][13] Müəllifin fikrincə od, ocaq, alov Günəşin yerdə simvolu, əksi, təcəssümüdür. Şagirdlərə üzərində günəş, lampa təsvirləri əks olunmuş qəbir daşlarını nümayiş etdirərkən, belə təsvirlərlə, oxşar hadisə ilə daha harada rastlaşmaq olar? sualını verdikdə onlar böyük həvəslə gəlin köçən qızların ata evindən yola salarkən, onları çırağın başına dolandırmalarını, Qobustan təsvirlərində qayığın üstündə günəş təsvirini, qırmızı rəngin sevinc, bolluq, uğur, işıq, isti və s. ilə bağlı olması kimi misallar gətirirlər. Memarlıqda, müasir dekorativ sənətimizdə də günəşin təsvirinə tez-tez rast gəlmək olar. "Güləbətin və təkəlduz tikmələrdə, xalça sənətində, daş və ağac oymalarda, şəbəkələrdə günəş təsvirini görmək olar."

Q. Əhmədov haqlı olaraq yazır: "İnsanın əmələ gəldiyi ilk dövrlərdə süni işıq olmamışdır. İnsanlar ancaq Günəş və Ay işığından istifadə etmişlər. Günəş və Ay işığı olmadıqda isə onlar zülmət kimi qaranlıqda qalmışlar. Ona görə də qədim əcdadlarımız Günəşə və Aya sitayiş etmişlər. Onların çıxmaslı münasibətilə qurbanlar kəsmişlər".[14]

Günəş bir çox Şərq xalqlarında məhz bu baxımdan ibadət obyekti, qədim Misirdə isə həmçinin dünyanın yaradıcısı hesab olunurdu.[15] Günəşlə bağlı təsvirlər, günəşin, alovun stilistik əksi olan butaların, axirət dünyasını, yeraltı ölülər dünyasını ehtiva edən ilan təsvirlərinin, ulu əcdadlarımızın kult hesab etdikləri qoç təsvirlərinin, buynuzlarının xalçalarımızda geniş təsvir olunması həmişə böyük maraq doğurur. Ulu əcdadlarımızın qədim inanclarına görə: " Ölüb getmiş əcdadlarımızın ruhları baharın oyanması, çöllərin sulanması və torpaqların məhsuldarlığı üzərində himayəkar bir qüvvə olmuşdur". İlanların axirət dünyasını əks etdirən onqom kimi əski inanclarda təqdim və təsvir olunması yəqin ki, onların yerin altında yaşaması, özünəməxsus həyat tərzi, qorxu, heyrət doğuran xüsusiyyətləri ilə, günəş işığının heç zaman düşmədiyi yeraltı aləmin zülmətini ehtiva edən gecə qaranlığında fəal həyat tərzi keçirməsi ilə bağlı idi. Təsadüfi deyildir ki, bir çox şərq xalqlarında ilan müdrikliyin simvolu sayılır. Skiflərə məxsus zoomorf qızıl bəzək əşyalarında ilanın son dərəcə yüksək peşəkarlıqla işlənmiş fiqurları da yəqin ki, bu inanclardan irəli gəlir.[16][17] Xalçalarımıza gəlincə isə burada ilan təsvirləri ilə bağlı: "Əjdaha motivinə geniş yer verilməsi əbəs yerə olmamışdır, çünki o uzaq keçmişlərdə türkdilli xalqlar həyatı, məişəti,

---

[11]Qara Ehmedov, Bu güne nece gelib çıxmışıq, Azerbaycan, Bakı. 1989.

[12] Aydın Memmedov, İbtidai icma dövründe elm olubmu? Tarix qezeti. 1992. 3(32)

[13] Aydın Memmedov, Tarix derslerinde incesenetle terbiye, yaxud gözellik alemine seyahet. Sumqayıt qez. 08. 02. 2003. 11 (7090)

[14] Qara Ehmedov, Bu güne nece gelib çıxmışıq, Azerbaycan. Bakı. 1989. s. 43-44

[15] Хук Сэмуил, Мифология ближнего востока, Москва. Наука. 1991. с. 60

[16] Estetik terbiye, Maarif, Bakı, 1972.s. 67

[17] Ворис Лукьянов, В мире эстетики. Просвещение, Москва. 1983. с. 78

folkloru, mifologiyasında görkəmli yer tutmuşdur".[18]Təsadüfi deyildir ki, Qarabağ kimi görkəmli xalça məntəqəsində toxunan "Vərni" adlı xalılarda sayı 16, 20, 24-ə çatan böyük həcmli əjdaha rəsmlərinə də təsadüf edilir.[19]Deməli, istər orta, istərsə də ali məktəblərdə təhsil alan övladlarımıza Azərbaycan xalçalarındakı son dərəcə nəfis, rəngarəng nəbati və həndəsi naxışlar təkcə təsviri baxımdan deyil, həm də daşıdığı, ehtiva etdiyi mənanı izah etdikdə incəsənətin nə qədər böyük imkanlara malik olduğunu anlatmış oluruq. Hələ IX-X əsrin tarixçisi Təbəri Azərbaycanın şimal-şərq əyalətlərində əla növlü xalçaların istehsal olunduğunu yazırdı. X əsr ərəb müəllifi Əl-Müqəddəsi Bərdədə toxunan xalçaların tayı bərabəri olmadığını qeyd edirdi.

Mənbələrdə Naxçıvanda "Zili" xalça, XIII əsrdə Təbrizdə "Nax" xalça toxunduğu xəbər verilir.[20]Alman səyyahı Adam Oleariy Dərbənddən Bakıya, oradan da Şamaxıya səyahət edərkən kəndlilərin evlərinin əlvan xalılarla bəzəndiyini heyranlıqla qələmə almışdır. 1858-ci ilin ikinci yarısından 1859-cu ilin əvvəlinə qədər Rusiyada və Qafqazda olmuş A. Düma yazırdı ki, Quba, Şamaxı və Nuxa xalıları rəng çalarlarına, naxışlarına və keyfiyyətlərinə görə "İran" xalılarından heç də geri qalmır.[21]Şagirdlərə Hans Holbeynin "Səfirlər", Hans Memlinqin "Məryəm körpəsi ilə" tablolarının reproduksiyalarını əyani vəsait kimi göstərmək və adı çəkilən tablolarda avropalı rəssamların öz əsərlərində fikir və məzmunu tam ifadə etmək üçün Azərbaycan xalçasını təsvir etmələri incəsənətin vəsf etdiyi gözəlliyin, yüksək estetik hiss və duyğuların sərhəd tanımadığını bir daha sübut edir. Hər bir tarix müəllimi 6-cı sinifdən ta ki, 11-ci sinif də daxil olmaqla tarix dərsliklərində istər Azərbaycanın, istərsə də digər dünya xalqlarının incəsənətini tədris edərkən rəssam və heykəltaraşın əsərlərinin rəngli slayd və reproduksiyalarından əyani vəsait kimi istifadə edərsə, onda tədris etdiyi dərsin məzmun və keyfiyyətini yüksəltməklə yanaşı, həmin incəsənətin malik olduğu xalqın bədii təfəkkür, düşüncə və həyat tərzi, həyat anlamı, ətraf aləmə münasibəti və digər məziyyətləri ilə bağlı dolğun məlumat verər, həmin xalqlar haqqında daha aydın təsəvvürlərin yaranmasına şərait yaratmış olar. Bu eyni zamanda şagirdlərin bədii estetik tərbiyəsində də son dərəcə böyük əhəmiyyət kəsb etmiş olar.Torpağı gözəl, suları gözəl, əfsanə və nəğmələri gözəl Azərbaycanımızda ta qədimdən insanların qəlbi sənət və eşqlə dolu olmuşdur. Məhz elə buna görədir ki, xalqımızın yaratdığı bədii sənət nümunələri ilə tanış olarkən insan sanki ovsunlanır, sirli bir aləmə-sənət dünyasının ağuşuna düşür. Bu əsərlərin bizdə oyatdığı ilk təəsürat bütün düşüncə və təfəkkürümüzdə, həyata baxış və münasibətin formalaşmasında böyük rol oynayır. Estetik tərbiyə insanda ətraf mühitə-onu əhatə edən cəmiyyətə və təbiətə son dərəcə həssas yanaşma kimi ali hisslərlə yanaşı müşahidə qabiliyyətinin inkişaf etməsinə də zəmin yaradır. Bu isə öz növbəsində gələcəkdə insanın hansı peşəyə yiyələnməsindən asılı olmayaraq onun yaradıcı təbiətə malik olmasına və öz peşəsinin incəliklərinə bələd olmasına, daima axtarışda olmasına səbəb olur. Məhz bu baxımdan memarlıq, rəssamlıq, heykəltaraşlıq, musiqi və incəsənətin digər sahələrinə dair zəngin informasiyaya dair tarix dərslərində şagirdlərin gözəllik dünyasına səyahət etməsi üçün çox geniş imkanlar vardır.

## Sonuç

Hər bir şagirdin gələcəkdə necə insan olacağı onun gözəlliyə necə münasibət bəsləməsindən, başqa sözlə estetik tərbiyəsindən çox asılıdır. Məhz bu baxımdan tarix fənninin

[18] Azerbaycan inceseneti, Bakı. İşıq. 1992. s. 78
[19] Azerbaycan inceseneti, Bakı. İşıq. 1992. s. 78
[20] Teymur Bünyadov, Azerbaycanda maldarlığın inkişafı tarixinden, Elm, Bakı. 1969. s. 145
[21] Aleksandr Düma, Qafqaz seferi, Yazıçı, Bakı. 1985. 

tədrisində incəsənətlə tərbiyə gələcək vətəndaşın hərtərəfli və ahəngdar şəxsiyyət kimi inkişafında əvəzedilməz rol oynayır. Estetik tərbiyə hər şeydən öncə, təkcə təbiətin gözəlliyi hislərini, zərifliyi tərbiyə etmir, eyni zamanda insanın gözəlliyi duymasına kömək edir. Tarix fənninin tədrisi zamanı ayrı-ayrı dövrlərə dair mədəniyyət abidələrindən, incəsənət və memarlıq əsərlərindən danışarkən müəllim bu əsərlərin yaranması zərurəti və xüsusuiyyətləri haqqında məlumat verir, onların bəşər tarixində mövcud olan digər sənət əsərləri ilə fərqli və oxşar cəhətlərini araşdırır. Bu isə tarix fənninin tədrisi zamanı uşaqlarda zəngin duyğuların, dünyagörüşünün formalaşmasına səbəb olur. Şagirdlər bəşər tarixinin təkcə qanlı və dağıdıcı müharibələrdən deyil, həm də zaman-zaman bəşəri və humanist dəyərləri təbliğ edən gözəllik dünyasından, bu dünyanı yaradan və qoruyan insanların gərgin əməyindən ibarət olduğunu görürlər. Bu isə, bütövlükdə gələcəyin vətəndaşı olan uşaqlarda həm keçmişə, həm də gələcəyə sağlam və sayqılı bir münasibətin formalaşmasına səbəb olur.

## Kaynakça

AZƏRBAYCAN INCƏSƏNƏTI, 1992, İşıq, Bakı.

BÜNYADOV, Teymur, 1969, Azərbaycanda maldarlığın inkişafı tarixindən, Elm, Bakı.

CƏFƏROV, Əsədulla, 1994, İnsanlığın səhəri, Azərbaycan, Bakı.

ALEKSANDR Düma, 1985, Qafqaz səfəri, Yazıçı, Bakı.

ESTETIK TƏRBIYƏ, 1972, Maarif, Bakı.

ƏHMƏDOV, Qara, 1989, Bu günə necə gəlib çıxmışıq, Azərbaycan, Bakı.

HƏSƏNOV, Yusif, 1963, İbtidai icma tarixi, Azərbaycan, Bakı.

MƏMMƏDOV, Aydın, 1992, İbtidai icma dövründə elm olubmu? Tarix qəzeti. 3(32) Bakı.

MƏMMƏDOV, Aydın, 2003, Tarix dərslərində incəsənətlə tərbiyə, yaxud gözəllik aləminə səyahət, Sumqayıt qəz. 11.

ЛУКЬЯНОВ, Борис, 1983, В мире эстетики, Просвещение, Москва.

ФОРМОЗОВ, Александр, 1966, Памятники первобытного искусства, Наука, Москва.

ХУК, Сэмуил, 1991, Мифология ближнего востока, Наука, Москва.

ЧЕБОКСАРОВ, Николай, Чебоксарова, Ирина, 1985, Народы расы культуры,Наука, Москва.